# TÜRKİYƏ RESPUBLİKASININ PKK TERRORUNA QARŞI MÜBARİZƏSİ, A.ÖCALANIN HƏBS EDİLMƏSİ

S.T.HACIYEV

Bu gün qardaş Türkiyənin bir nömrəli problemlərindən biri də terrorla, ilk növbədə PKK terroru ilə mübarizə problemidir. Xüsusi qeyd etmək lazımdır ki, son illərdə PKK terrorunun cilovlanmasında xeyli uğurlar əldə edilmişdir. Qardaş Türkiyənin terrora qarşı mübarizə təcrübəsini öyrənməyin ölkəmizin erməni terrorçuluğuna qarşı mübarizəsində müəyyən faydası ola bilər. Bunu nəzərə alaraq biz oxucuya təqdim olunan bu məqalədə Türkiyə dövlətinin PKK terroruna qarşı mübarizəsi və xüsusən də bu terrorçu təşkilatın lideri A.Öcalanın həbs olunması haqqında məlumat verəcəyik.

Türkiyədə terrorizmə qarşı mübarizənin hüquqi bazasının yaradılmasına xüsusi fikir verilir. Ölkə Konstitusiyasının 12-ci maddəsində hər bir şəxsin haqq və azadlıqlarının toxunulmazlığı təsbit edilir, sonrakı 13-cü maddədə isə bu haqların və azadlıqların hansı halda məhdudlaşdırıla biləcəyi göstərilir. 14-cü maddədə isə bu haqların və azadlıqların dövlətin və millətin bütünlüyünü pozmaq, Türkiyə dövlətinin varlığını təhlükəyə salmaq məqsədilə istifadə oluna bilinməsi qadağan olunur və bu qadağanı pozanların və ya başqalarını bu yola təşviq, yaxud təhrik edənlərin qanunla cəzalandırılması təsbit olunur[1].

3713 saylı Terrorla mübarizə qanununun 1-ci maddəsində dövlətin və millətin bölünməz bütünlüyünü pozmaq, dövlət hakimiyyətini zəiflətmək məqsədilə bir təşkilata məxsus şəxs və ya şəxslər tərəfindən törədiləcək hər cür hərəkət terror cinayəti sayılmışdır. Türk Cinayət Məcəlləsinin 125-ci maddəsində dövlət ərazisini bütünlüklə və ya qismən xarici bir dövlətin hakimiyyəti altına qoymağa və ya dövlətin istiqlalını, yaxud bütövlüyünü pozmağa və ya dövlətin hakimiyyətində olan ərazilərdən bir hissəsini dövlət idarəsindən ayrılmağa yönəlmiş bir hərəkət edən şəxsin ölüm cəzası ilə cəzalandırıldığı bildirilir[2].

3984 saylı Radio və televiziyaların quruluşu və yayınları haqqında Qanunun 4-cü maddəsində Türkiyə Respublikasının varlıq və müstəqilliyi, dövlətin ölkəsi və milləti ilə bölünməz bütünlüyü, cəmiyyəti şiddət, terror və etnik bölüşdürücülüyə təhrik edən və cəmiyyətdə nifrət duyğuları yarada

[1] Özdiker C. Türkiyede terörizm haber ve yorumları «Terörizm incelemeleri», ASAM yayınları, 10, s.181-182

[2] Yenə orada, s.182

biləcək yayımlar qadağan olunur[1].

Konstitusiyanın 68-ci maddəsinin 4-cü bəndində siyasi partiyaların nizamnamə və proqramları ilə hərəkətlərinin dövlətin istiqlaliyyətinə, ölkəsi və milləti ilə bölünməz bütünlüyünə zidd olması qadağan olunur[2]. 2908 saylı Dərnəklər qanunun 5-ci maddəsində Konstitusiyanın ilk hissəsində müəyyənləşdirilmiş məqsədlərə zidd olan dərnəklərin qurulması qadağan edilmişdir.

Türkiyə hökuməti PKK terroruna cavab olaraq hələ 1987-ci ildən Şərqi və Cənub-Şərqi Anadoluda fövqəladə vəziyyət elan etmişdir. Fövqəladə vəziyyət 10 il müddətinə tətbiq olunmalı və hər 4 aydan bir parlament tərəfindən uzadılmalı idi. Fövqəladə vəziyyət haqqında qanun mülki valilərə mətbuatı məhdudlaşdırmağı və ictimai təhlükəli hesab etdikləri şəxsləri vilayətdən çıxarmaq hüququ da verir. Fövqəladə vəziyyət İnsan haqları haqqında konvensiyanın bu bölgələrdə tətbiqinin dayandırılması da deməkdir[3].

1985-ci ilin aprel ayında kənd qoruyucuları sistemi tətbiq olunmuşdur. 442 saylı kənd qanununun 74-cü maddəsinə 26 mart 1985-ci il 3175 saylı qanunla edilən iki əlavəyə uyğun olaraq terrora qarşı mübarizə məqsədi ilə müvəqqəti kənd qoruyucuları sistemi tətbiq olunur[4]. Məqsəd PKK-çıların basqınları qarşısında kəndlilərin özünümüdafiəsini təşkil etmək idi. Bu sistem bir növ 1905-1908-ci illərdə yaradılmış həmidiyyə alaylarına bənzəyir. Türk hökuməti kənd qoruyucuları sistemindən sadəcə olaraq dağlıq bölgələrdə əmniyyəti təmin etmək üçün deyil, həm də kəndlilərin dövlətə sədaqətlərini bildirmələri üçün istifadə edirdi. Sistemə qatılmayan kəndlilər, yaxud tayfaların PKK-ya rəğbət bəsləyənlər olması güman edilirdi. Onların sayı 1990-cı ildə 18 min nəfərikən 1994-cü ildə 63 min nəfərə qalxmışdı[5]. İllər keçdikcə kənd qoruyucuları sistemi ciddi tənqid hədəfinə çevrildi. Bir çox kənd qoruyucuları silah qaçaqmalçılığı və digər cinayətlərlə məşğul olmuşdular. Bir sıra hallarda kənd qoruyucuları PKK üzvü olduqlarını iddia edərək rəqib tayfaların üzvlərini öldürürdülər[6].

Terrorla mübarizədə uğur qazanılması üçün rəhbərliyin bir əldə toplanması, bütün terrorla mübarizə qurumlarının bir əmrlə hərəkətə keçməsi, dövlətin bütün antiterror qurumalarının bir çərçivədə fəaliyyət göstərməsi vacibdir. Terrorla mübarizədə vilayətlər arasında koordinasiya və əməkdaşlıq yaratmaq məqsədilə 26 noyabr 1986-ci il tarixdə Əmniyyət Baş Müdirliyi daxilində Terrorla Mücadilə və Hərəkət Dairə Başqanlığı qurulmuşdur [7].

1983-cü ildə Əmniyyət Baş İdarəsində girovgötürmə, təyyarəqaçırma

[1] Özdiker C. Türkiyede terörizm haber ve yorumları «Terörizm incelemeleri», ASAM yayınları, 10, s.182.

[2] Yenə orada, s.183.

[3] Kemal Kirişçi- Gareth M.Winrow. Kürt sorunu (kökeni ve gelişimi). Tarih vakfı yurt yayınları 47, ikinci baskı, Ankara, 1997, s.132.

[4] M.Sami Denker, Uluslararası terör. Türkiye ve PKK. Boğaziçi yayınları, №217, Birinci baskı, istanbul, 1997, s.179.

[5] Kemal Kirişçi- Gareth M.Winrow. Göst. əsəri, s.179.

[6] Yenə orada, s.135.

[7] Yenə orada, s.181.

kimi terror hərəkətlərinə müdaxilə etmək və girovlari xilas etmək üçün təlim verilib yetişdirilmiş olan xüsusi hərəkət dəstələri təşkil olunmuşdur. Cənub-Şərqi Anadoluda PKK terroruna qarşi istifadə olunmaq üçün 30 dekabr 1985-ci il tarixdə belə dəstələrin Bingöl, Bitlis, Diyarbəkir, Malatya, Mardin, Siirt, Tunceli, Şanli Urfa və Van vilayətləri Əmniyyət Müdirliklərində də yaradılması qərara alınmışdır. Daha sonra belə dəstələrin tərkibi böyüdülüb şöbə səviyyəsinə qaldırılmış, Türkiyənin qərbində XVI Fövqəladə Vəziyyət Bölgəsində tez-tez terrorun baş verdiyi bölgələrdə daha 11əlavə olmaqla 38 vilayətdə xüsusi hərəkət şöbələri təşkil olunmuşdur[1]. 26 iyul 1993-cü ildə terrorla mübarizə və hərəkət Dairə Başqanlığındaki (TEMUH) xüsusi hərəkət şöbə müdirliyi xüsusi Hərəkət Dairə Başqanlığına çevrilmişdir[2].

Polis xüsusi hərəkat Birliyinin heyəti 5.302 nəfərə çatdırılmışdır. Terrorla mübarizə üçün kadrlar yetişdirmək məqsədilə xüsusi təyinatlı Polis məktəblərinin açılması qərara alınmışdır[3].

1986-1987-ci illər PKK-nın terrorçu hərəkətlərinin artdığı, qətllərin çoxaldığı illər olmuşdur. Terrorçularla mübarizənin təsirli olması üçün 19 iyul 1987-ci il tarixdə 11 vilayətdə fövqəladə vəziyyət elan olunmuş və 285 saylı qanun hökmlü qərarla, Bingöl, Diyarbəkir, Elazıq, Hakkari, Mardin, Siirt, Tunceli və Van vilayətlərini əhatə edən fövqəladə hal bölgə valiliyi təsis edilmişdir. 3647 saylı qanunla vilayət statusu almış Batman və Şırnik vilayətləri də 426 saylı qanun hökmlü qərarla fövqəladə hal bölgə valiliyinə daxil edilmişdir.

PKK quldurları ilə mübarizənin bütün ağırlığı yerli polis orqanlarının üzərinə düşdüyü üçün bir nəticə vermirdi. 1987-ci ildə PKK-ya qarşı xüsusi təyinatlı korpus yaradıldı. Həmin korpusun komandiri general İsmayıl Selen oldu. Xüsusi korpusdan əlavə 4-cü ordunun hissələri Cənub-Şərqi Anadoluya yeridildi.

Türk ordusu terrorçulara qarşı fəal hərbi əməliyyatlara başladı. 1991-ci ilin yekunlarına görə PKK-nın verdiyi itkilər 5 min nəfərdən çox idi. 1991-ci ilin sonunda türk ordusu PKK-nın Türkiyə ərazisindən xaricdə yerləşən bazalarına zərbə endirmək məqsədilə hərbi aviasiyanın köməyi ilə Şimali İraq ərazisinə daxil oldu və buradakı kürd düşərgələrini dağıtdı.[4]

Belə əməliyyətlar sonrakı illərdə də davam etdirildi.

1993-cü ilin avqust ayında TSQ-nin müdafiə konsepsiyasında dəyişiklik edildi. Bu vaxta qədər ən böyük təhdid hesab olunan Yunanıstan ikinci plana keçirilərək PKK birinci təhlükə sayıldı. Buna uyğun olaraq I Ordu ikinci sıraya keçirilərək II Ordu birliklərinin bir qismini Jandarm Asayiş komandanlığının sərəncamına verərək ön plana çıxmış, daha sonra digər ordulardan da hissələr bölgəyə gətirilmişdir. Bu şəkildə mübarizə iki il davam etmişdir. Korpusun üzərinə qoyulan yükün ağırlığı nəzərə alınaraq 1995-ci

[1] M.Sami Denker, Göst. əsəri, s.181.
[2] Yenə orada.
[3] Yenə orada, s.182.
[4] «Forum», 1992-ci il, cild 13, sayı 275, s.16.

ilin sentyabrından etibarən bölgədə yerləşən II və III Orduların da bilavasitə üzərlərinə vəzifələr qoyulmuşdur[1]. Bu durum PKK-ya qarşı hərbi əməliyyatların skelet mərkəzinin yaradılmasına kömək etmişdir. Yeni mərhələdə bütün Cənub-Şərqi Anadoluda «sahə hakimiyyəti» konsepsiyası gerçəkləşdirilməyə başlanmışdır. Bu konsepsiyaya görə PKK-nın hərəkət sərbəstliyini aradan qaldırmaq üçün PKK-çıların yerləşmə məntəqələri yarada biləcəyi ərazilər işğal edilərək hərəkət sərbəstlikləri aradan qaldırılmalı idi.

Bu konsepsiya çərçivəsində bölgəyə yeni birliklər yollanmış, bölgədəki birliklərin yenidən təşkilinə başlanmışdır. Birliklərin nəzarət edə bilmədiyi sahələrdə PKK hərəkətlərinin məhdudlaşdırılması üçün ordunun atəş məsafəsini artırmaq məqsədi ilə atəşə dəstək vasitələri gücləndirilmiş, bölgəyə ağır hava və topçu birlikləri sövq edilmişdir. Bölgəyə çoxlu zirehli və mexaniki birliklər, döyüş və nəqliyyat vertolyotları göndərilmişdir[2].

Yeni konsepsiyaya uyğun yeni taktikalar seçilmişdir. Gecə hərəkəti və sızma hərəkəti mənimsənilmişdir. Vertolyotların daşıyacağı dəstələr ilə qəfil hərəkətlər tətbiq olunmağa başlanmışdır. Qış əməliyyatları üçün alınan təchizat sayəsində ordu qış əməliyyatlarına da hazır vəziyyətə gətirilmişdir.

Bu yeni konsepsiya ilə yenidən qurulan təhlükəsizlik qüvvələri 1994-cü ilin yazından ağır əks-hücuma keçmişdir.

Ardı-ardınca keçirilən əməliyyatlarda 3 min nəfərə qədər əsgər iştirak etdi. Havadan dəstək göstərilən əməliyyatlar Şimali İraqın dərinlliklərinə qədər sahəni əhatə etdi və PKK-ya böyük zərbələr endirildi.

1994-cü il yanvarın 12-də Şimali İraqdan Çuxurca ilcəsinə PKK dəstəsi daxil oldu, lakin TSQ-nin hissələri ilə çatışmada məhv edildi, 13 yaraqlı öldürüldü. Yanvarın 25-də edilən ikinci cəhd də PKK-çılar üçün uğursuz oldu. Cavab olaraq yanvarın 28-də Türkiyə təyyarələri PKK-nın Zeli düşərgəsini bombaladılar. 32 terrorçu öldürüldü, 38-i isə yaralandı[3].

1994-cü ilin mart ayında isə TSQ Türkiyə daxilində Cabbar dağlarında, PKK-nın girilməz elan etdiyi sahələrdə əməliyyatlara başladı. İyul ayında Cudi dağı PKK-çılardan təmizləndi[4].

Aprel ayında 5 min nəfərlik döyüş təyyarələri və vertolyotların dəstəklədiyi 5 min nəfərlik türk hərbi birləşmələri Şimali İraqa daxil oldular. Türk alayı sərhəddin 15 kilometrliyində yerləşən Məzrə-Karıyedəri bölgəsindəki düşərgəyə daxil olaraq 100 PKK-çını öldürmüş, bu əməliyyatların gedişində daha yüzlərlə yaraqlı qətlə yetirildi. Təəssüf ki, o zaman ABŞ prezidenti olan Bil Klinton iqtidarı Türkiyəyə gizli bir mesaj göndərərək əməliyyatın durdurulmasını istəmişdi[5].

Hərbi sahədə açıq məğlubiyyətə uğrayan PKK yeni və təhlükəli bir siyasət yürütməyə başlamışdır. Şimali İraqda real bir qüvvə kimi qala bilmək üçün kütləvi dayağı lazım olduğu qərarına gələn PKK bu bölgədə ciddi bir

---

[1] M.Sami Danker. Göst. əsəri, s.156.

[2] Ümit Özdağ. Türkiye Kuzey İrak ve PKK. Avrasiya – Bir vakfı, ASAM yayınları. 1. Geopolitik strateji və Terör Dizisi yayınları. I., Ankara, 1999, s.105-106

[3] Ümit Özdağ. Türkiye Kuzey İrak ve PKK, s.122

[4] Yenə orada, s.124

[5] Yenə orada, s.124-125

dayağı olmadığından Türkiyədəki kürdlərdən bura köçürməyi qərara aldı. Şırnak ətrafında PKK-ya rəğbət bəsləyənləri olan və çoxluğu Guyan tayfasının təşkil etdiyi 20 min nəfəri 1994-cü ilin fevralından başlayaraq Şimali İraqa köçürməyə başladı[1]. PKK bu yolla əvvəla Şimali İraqda özünə sosial dayaq yaratmaq, ikincisi əməliyyatlar zamanı bu kütlədən bir qalxan kimi istifadə etmək, üçüncüsü Türkiyədən kürd köçü olduğunu təbliğ etmək məqsədi güdürdü.

1995-ci il martın 20-də 13 generalın komandanlığı altında TSQ-nin 35 min nəfərlik bir qüvvəsi Şimali İraqa daxil oldu. Əməliyyatın hədəfləri Haftanın bölgəsindəki 12 düşərgə və onların ətrafları idi. Lakin əməliyyat qəfil keçirilmədiyi üçün PKK əvvəlcədən bir çox düşərgələrdən geri çəkildiyindən ancaq mövqe döyüşləri oldu. Güclü xarici təzyiqlərlə üzləşən Türkiyə 2 ay sonra qüvvələrini Şimali İraqdan geri çəkməli oldu[2].

Vaxtaşırı Şimali İraq ərazisində PKK hərbi bazalarına endirilən zərbələr kürd separatçılarının döyüş qabiliyyətini tamamilə sarsıtdı.

1998-ci ilə girərkən PKK artıq heç bir əhəmiyyətli hərbi gücə malik deyildi. Onun KDP bölgəsində 400, KYB bölgəsində isə 2000-ə yaxın yaraqlısı vardı. 1998-ci ilin fevralında 7 minlik türk hərbi birlikləri zirehli texnikanın müşayiəti ilə Şimali İraqa girmiş və fevralın 11-də F-16 təyyarələri PKK düşərgələrini bombalamışlar[3].

Artıq 1998-ci ilin yazından etibarən PKK Şimali İraqdan Türkiyəyə girməkdə çətinlik çəkirdi. PKK artıq strateji müdafiə dövrünün ilk mərhələlərinə qayıtmalı olmuşdu.

A.Öcalan 1998-ci ilin avqustunda verdiyi bir açıqlamada PKK-nın ordulaşması barədə 1995-ci ildə qəbul olunmuş qərarın gerçəkləşmədiyini, ancaq indi siyasiləşəcəyini söyləyərək PKK-nın yeni strategiyasını izah etmişdir. Bu strategiya PKK-ya Qərb dünyasının siyasi dəstəyinə nail olmaq və Türkiyəni bir çözümə vadar etmə siyasətinə zəmin hazırlamaqdan ibarət idi.

A.Öcalanın tutulması üçün fəal əməliyyat tədbirlərinə hələ 1993-cü ilin ortalarından başlanmışdı. 1994-cü ilin aprel ayına qədər daha artıq dərəcədə müxtəlif ölkələrə mənsub xəfiyyələr pulla ələ alınmış və onlara xeyli pul verilmişdi. Ciddi çalışmalar 1994-cü ilin aprel ayından sonra, nəticə verən çalışmalar isə 1994-cü ilin sonlarına doğru, ən çox MİT əməkdaşlarından istifadə olunmaqla başlamışdır[4].

Öcalan MİT tərəfindən addımbaaddım izlənirdi. 1995-ci ilin yanvar ayında MİT-in rəhbərliyi altında «Müştərək fəaliyyət qrupu» təşkil olundu. Qrupa MİT, Baş Qərargah və Əməliyyat Baş Müdirliyi əməkdaşları daxil edilmişdi.

Bir müddət sonra prezident S.Dəmirəl, baş nazir Məsud Yılmaz və Baş qərargah rəisi Hakkı Qaradayı MİT-in A.Öcalanı tutmaq üçün əməliyyat keçirməsinə icazə verdilər[5].

---

[1] Ümit Özdağ. Türkiye Kuzey İrak ve PKK, s.125-126.
[2] Yenə orada, s.131-132.
[3] Yenə orada, s.182.
[4] Yenə orada.
[5] Yenə orada.

Öcalana qarşı hazırlanan əməliyyata «Mersedes» şərti adı verildi. Əməliyyatın keçirilməsində könüllülərdən istifadə olundu. Onlardan biri də «Yaşıl» ləqəbli Mahmud İldırım idi[1].

Hər şey çox yaxşı gedirdi. May ayının ilk günlərində 500 kiloqrama yaxın S-4 partayıcının olduğu bir mikroavtobus sərhədi keçərək Suriya torpaqlarına daxil oldu. Maşında olan könüllülərdən biri də Mahmud İldırım idi. Yolda özlərini qaçaqlar kimi tanıdan qrup partayıcı dolu maşınla Dəməşq şəhərinə yaxınlaşdı. 1996-cı il mayın 6-da suriyalı qaçaqlarla birlikdə heroin alveri pərdəsi altında əməliyyat gerçəkləşdirilməyə başlandı və Öcalanın gəlməsi gözlənildi. Öcalan M.Qorxmaz Akademiyasına gəldi. Avtomobil suriyalı qaçaqmalçıya təslim edildi. O, içərisində uyuşdurucu olduğunu zənn etdiyi avtomobili Öcalanın olduğu yerin nəzərdə tutulan nöqtəsinə yaxınlaşdıra bilmədi. Çünki yol polislərinin izləməsi onu hürkütmüşdü. Buna görə də avtomobili evin əks tərəfində və 100 metr aralıda saxladı. Avtomobil elə buradaca partladı. Mikroavtobusun olduğu nöqtədə partayışın təsiri ilə 7-8 metrlik bir çuxur yarandı. Eyni anda Dəməşqin bir çox yerlərində də partlayışlar oldu. Ancaq A.Öcalan sağ qaldı[2]. A.Öcalan yaxalanarkən verdiyi ilk ifadəyə görə, partiya xətti ilə təhqiqat aparmış və aydınlaşdırmışdı ki, onun evinə yaxınlaşan partlayıcı ilə dolu avtomobili Suriya kürdlərindən Malasino ailəsindən bir gənc idarə etmişdir. A.Öcalan ona qarşı Viranşəhər Bələdiyyə başqanı İbrahim Abdu Keleşin başçılığı və köhnə düşməni Sedat Bucakın iştirakı ilə sui-qəsd hazırlandığını güman etmiş, buna görə də Sədat Bucakın, Viranşəhər Bələdiyyə başqanı Keleş Abdioğlunun öldürülməsi haqqında əmr vermişdi[3].

A.Öcalana qarşı planlaşdırılan ikinci əməliyyat 1996-cı il noyabr ayının 27-də PKK-nın təsis ildönümündə gerçəkləşdirildi. Öcalan hər təsis günündə təşkilatın Bekaa vadisindəki bir binasına gələrək buradan radio ilə çıxış edirdi. Öcalan radio ilə çıxış etdiyi zaman məhv edilməli idi. «Mersedes» əməliyyatında sıravi bir iştirakçı olan «Yaşıl» bu dəfə Mətin Atmaca adlı birisinin adına tərtib olunmuş saxta pasportla baş rolda idi. «Yaşıl» və MİT-in terrora qarşı mübarizə mərkəzinin bir üzvü təyyarə ilə Livana gedib, ayrı-ayrı yollarla hərəkət etdilər. Yaşıl, Beyrutdan keçməklə Bekaa vadisinə gedəcəkdi. Lakin görüşməli olduğu şəxslərlə görüşməkdə gecikdi. Həm də Bekaa vadisindəki partladılması nəzərdə tutulan evdə təmir getdiyindən burada yalnız qaravulçu və ailəsi vardı. Buna görə partlayış gerçəkləşdirilmədi. Əməliyyat bir il təxirə salındı. «Yaşıl» isə qorxusundan yoxa çıxdı[4].

Öcalana qarşı əsgəri orqanlar da bir sıra əməliyyatlar keçirmiş, lakin onlar da uğur qazanmamışdı[5].

1998-ci ildə PKK-nın törətdiyi terror hərəkətləri ucbatından Cənub-

---

[1] Ümit Özdağ. Türkiye Kuzey İrak ve PKK, s.52-53.

[2] Özkan Tuncay. Operasyon. «Doğan Kitapçılıq» yayını. 5-ci baskı. İstanbul, 2000, s.53-54.

[3] Abdullah Öcalanın DGM savcıları tarafından İmralı Cezaevinde alınan ilk ifadeleri. Bax: Özkan Tuncay. Göst. əsəri, ek. 3, s.215; A.Öcalanın İmralı Cezaevinde DGM Baş savçıları tarafından alınan ilk ifadeleri, «Apo, PKK ve saklanan gerçekler», (Yayına hazırlayan Ünal İnanc-Can Polat). Güvenlik ve yargı mühabirleri dernegi. Ankara, 1999, s.11.

[4] Özkan Tuncay. Göst. əsəri. s.56-57.

[5] Yenə orada, s.57.

Şərqi Anadolu və böyük şəhərlər bir qan gölünə çevrilmişdi. Belə vəziyyətdə A.Öcalanı tutmaq üçün respublika prezidenti Süleyman Dəmirəlin başçılığı ilə keçirilən Milli Təhlükəsizlik Şurasında qərar qəbul olundu. Türkiyə ilk dəfə olaraq PKK-ya dəstək verən və Öcalanı sıxışdıran Suriyaya qarşı güc tətbiq etməyi qərara aldı. Bunun ilk əlaməti Quru qüvvələri Komandanı Orgeneral Atilla Ataşin çıxışında göründü. O, 16 sentyabr 1998-ci ildə Hatayın Reyhanlı rayonunda xalqa xitabən etdiyi nitqində gücdən istifadə etmək barədə israrlı olduğunu vurğuladı. Bununla Öcalanın tutulması ilə bitəcək 152 günlük amansız təqibə start verildi. Ataş demişdi:

«Türk dövləti olaraq qonşularımızla yaxşı əlaqə qurmağa çalışmalıyıq. Bu yaxşı niyyətimizə və qeyrətimizə rəğmən bəzi qonşularımız, xüsusən də adını açıq çəkirəm, Suriya kimi qonşular yaxşı niyyətimizi yanlış başa düşürlər. Öcalan adlanan qulduru dəstəkləyərək Türkiyəni terror bəlasına bulaşdırdılar. Yaxşı əlaqələr naminə lazımi cəhdləri göstərən Türkiyə, gözlədiyi qarşılığı görməzsə, hər cür tədbir görməyə haqlıdır. Artıq səbrimiz qalmadı»[1].

Bir qədər sonra isə – oktyabrın 1-də prezident Süleyman Dəmirəl TBMM–in açılışı nitqində Suriyanın hərəkətlərindən artıq səbrin tükəndiyini, lazımi tədbirlər görməyə haqqı çatdığını bildirdi[2]. Bununla da Türkiyə-Suriya münasibətlərində böhran başladı.

Türkiyə terror bəlasından qurtulmaq üçün müharibəni belə göz önünə almışdı. Türk hərbi təyyarələri ilə Suriya sərhədlərində təlim uçuşları keçirilirdi. Türk Silahlı Qüvvələri noyabrın 5-də Suriya sərhədi yaxınlığında 35 min əsgər və həqiqi mərmilərlə keçiriləcək manevrə hazırlaşırdı. Suriya qorxuya düşdü. Türk rəsmilərinin sərt açıqlamaları və sərhəddəki hərəkətlilik Suriya hökumətinin gözünü qorxutmuşdu. Suriya prezidenti Hafiz Əsəd, artıq işlərin keçmişdə olduğu kimi getməyəcəyini anlamağa başladı. İlk işi Türkiyə ilə dialoqa girməyə cəhd oldu. Hər keçən gün müharibəyə bir qədər yaxınlaşdırırdı. Vasitəçiliyə çalışan Misir prezidenti Hüsnü Mübarək oktyabrın 3-də Ankaraya gəldi. Lakin ona bildirildi ki, Suriya A.Öcalanı verməzsə, Türkiyə qəti hərəkət etməli olacaqdır[3]. O dövrdə baş nazir olmuş M.Yılmaz sonralar demişdi ki, həm S.Dəmirəl, həm də o, H.Mübarəkə bildirmişdilər ki, A.Öcalan probleminin çözməkdə də israrlıdırlar və bunun üçün hətta müharibəni də göz önünə almışlar.[4]

Küncə sıxışdırılan Dəməşq Türkiyənin israrlı mövqeyi qarşısında geri çəkilməli oldu. O, İranın Xarici işlər naziri K.Hərrazinin araçılığı ilə cavab verdi. Suriya Öcalanı göndərə biləcəyini bildirdi[5]. Qeyd edək ki, o günlərdə sərhəddəki Qamışlı, Dərbəsiyə, Tel Əbiyat kimi bölgələrdə olan bəzi PKK düşərgələri yerlə yeksan edilmişdi. Suriyanın cavabında bunun təsiri olmuş-

[1] Oktay Pirim, Süha Örtülü. PKK-nın 20 yıllık öyküsü (Ömerli köyünden İmralıya). İstanbul, 1999, s.80.

[2] Hakantürk. Asrın Operasyonu. «Paket Kenyada kaptıldı». Atlantik yayınları, I baskı, İstanbul, 1999, s.13.

[3] Özkan Tuncay. Göst. əsəri. s.65; O.Pirim, S.Örtülü, Göst. əsəri, s.80.

[4] Özkan Tuncay. Göst. əsəri. s.185.

[5] O.Pirim, S.Örtülü. Göst. əsəri, s.81.

du.

MİT telefon danışıqlarını dinləyirdi və Öcalanın Suriyanı tezliklə tərk edəcəyi məlum olmuşdu. Onun S.Hüseynin nəzarəti altındakı bölgələrə keçməsi ehtimalı böyük idi[1].

Suriyanın cavabından sonra Öcalan MED TV-də görünməz oldu. Artıq o, bu TV-də yayımlanan proqramlara qatılmırdı. Bu durum diplomatik dairələrdə Öcalanın Suriyanı tərk etməsinin bir əlaməti kimi qiymətləndirilirdi. Bu yöndəki gümanlar doğru çıxdı.

A.Öcalanın Suriyanı tərk etməsi barədə Türkiyəyə ilk xəbəri həm amerikan qaynaqları, həm də İsrailin gizli xidməti Mossad tərəfindən verildi.[2] Eyni zamanda bunu da qeyd etmək lazımdır ki, Suriya getdikcə ağırlaşan iqtisadi durumu ilə bağlı ABŞ-la münasibətlərini yaxşılaşdırmaq və İsraillə sülh müqaviləsi imzalayaraq Türkiyənin ona qarşı yönələ biləcək hərəkətlərini önləməyə çalışırdı. SSRİ-nin dağılması, Rusiyanın düşdüyü ağır vəziyyətə görə, Suriyaya yardım göstərə bilməməsi sonuncunu sözəbaxan etmişdi. Məsud Yılmaz «Hurriyyət» qəzetinə müsahibəsində A.Öcalanın Süriyadan çıxarıldığını, onun Rusiyaya, yaxud Ermənistana və ya Livana getdiyini bildirmişdi.[3] Öcalan Suriyanın Türkiyə sərhədinə yaxın bir məntəqəsindən - Qamışlıdan təyyarə ilə uçurulmuşdu.

A.Öcalan Abdulla Sarıqurt adına saxta pasportla Dəməşqdən Stokholma uçan təyyarə ilə yola düşüb oktyabrın 9-u saat 12-də Afinada enmişdi.[4] Burada Yunan gizli servisinin Dmitri adlı bir yüksək rütbəli əməkdaşı tərəfindən qarşılandı. Ancaq yunanlar A.Öcalanı heç də xoş sifətlə qarşılamadılar və onun tezliklə ölkəni tərk etməsini istədilər. Öcalanın Yunanıstandan sığınacaq hüququ və hava limanındakı otellərdən birində qalmaq icazəsi almaq cəhdi boşa çıxdı. Rusiyaya getməyə qərar verdi. Rusiyadakı adamlarından Mahir şərti adlı yaraqlını telefonla arayaraq ölkəyə getmək mümkün olub-olmadığını soruşdu. Rus rəsmilərindən icazə aldıqdan sonra yaraqlıların verdiyi 8 nəfərlik təyyarə ilə Rusiyaya uçdu. Sonralar A.Öcalan Suriyadan qaçışını belə təsvir etmişdi:

«9 oktyabr 1998-ci il günü yunanca bilən və Yunanıstan təmsilçisi olan Rozerin şərti adlı Ayfer Kaya ilə bir Suriya təyyarəsi ilə uçdum. Çıxmazdan əvvəl Avropa təmsilçilərindən mənə Abdulla Sarıqurt adına yazılmış bir pasport verildi. Pasporta öz şəklimi yapışdırdım. Yunanıstana gəldiyimizdə o zamana qədər mənə böyük ilgi göstərən, PKK-ya dost olduğunu ifadə edən Yunanıstan yüksək dərəcədə pis üzünü göstərdi. Mənə, «3 saat içərisində ya gəldiyin yerə geri dönəcəksən və ya istədiyin yerə gedəcəksən», dedilər. Bu arada Rozerin Yunan servisindən Dimitri ilə görüşdük. Yunanıstandan ayrıldıq və Moskvaya getdik. Moskvaya getməzdən əvvəl Yunanıstanda mühacir kimi saxlanmağımı tələb etdim, ancaq qəbul olunmadı. Moskvada Jirinovski kanalı ilə təmasa keçdim, zatən məni dəvət etmişdilər. Mitrofono məni Suriyada olarkən də dəvət etmişdi. Bu Mitrofona Jirinov-

---

[1] Özkan Tuncay. Göst. əsəri. s.65-66.
[2] Yenə orada, s.70-71.
[3] Hurriyyet, 11 oktyabr, 1998-ci il Hakantürk Göst. əsəri, s.14.
[4] Özkan Tuncay. Göst. əsəri, s.185.

skinin partiyasının üzvüdür. 33 gün içərisində onların tapdığı evdə qaldım. Bu müddət içərisində Ariski adlı təhlükəsizlik məmuru olan şəxslə təmaslarım oldu. Duma bir səsə qarşı mənim Rusiyada qalmağıma razılıq verdiyi halda nazir Primakov anlamadığım bir səbəblə bu qərarı yerinə yetirmədi. 33 gün sonra Rusiyanı tərk etməyə məcbur oldum»[1].

Öcalan Türkiyəni tərk etdiyi andan MİT onu izləməyə başladı və oktyabrın 19-da Moskva ətrafında Odintsova qəsəbəsində yaşadığını öyrəndi. Öcalanın Türkiyəyə verilməsi üçün tədbirlər görülməsinə başladı[2].

MİT-in məlumatını alan baş nazir M.Yılmaz Rusiyanın Türkiyədəki səfirini yanına çağırıb A.Öcalanın Rusiyada olduğunu, minlərlə insanın həlakında günahkar olduğu üçün ya Türkiyəyə verilməsini, ya da həbs olunmasını tələb etdi. Əvvəlcə səfir Öcalanın Rusiyada olmasını inkar etdi. Ancaq təkrar görüşdə Öcalanın Rusiyada olduğunu etiraf etdi. Bəzi parlament üzvlərinin Öcalanı himayə etdiklərini də bildirdi. Ancaq baş nazir Primakovun Türkiyəyə yardım edəcəyini də bildirdi[3].

Eyni zamanda MİT nümayəndələri Suryanın təhlükəsizlik xidməti nümayəndələri ilə Adana vilayətinin Seyhan rayonunda oktyabrın 20-də görüş təşkil etdilər. Görüşdə türk tərəfi inkarolunmaz dəlillər ortaya qoyub Suriya tərəfini PKK-ya qarşı birgə tədbirlər haqqında sazişi imzalamağa vadar etdi. Türkiyə quru qüvvələrinin 35 min əsgərinin Suriya sərhədlərinə yeridilib əməliyyata hazır vəziyyətə gətirilməsi Suriyanı möhkəm qorxuya salmışdı. Sazişə görə, Suriya tərəfi A.Öcalanın bir daha Suriyaya buraxılmayacağına söz verdi[4].

Anlaşmaya görə, PKK düşərgələrində fəaliyyətə xitam veriləcək, təşkilatın Suriyadakı yaraqlıları həbs olunacaqdı. PKK-nın ticarət fəaliyyətinə də izn verilməyəcəkdi. Suriyanın anlaşma mətnindəki şərtlərə əməl edib-etməməsinə türk tərəfindən nəzarət oluna biləcəkdi[5].Öcalan Moskvanın Odinsovo qəsəbəsində tək deyildi, 200-ə qədər PKK yönəticisi də onunla birlikdə bura gəlmişdi[6].

Moskvada yerinin öyrənildiyini hiss edən A.Öcalan yerini dəyişmək istəyirdi. Buna görə də Ankara hökuməti Öcalanın gedə biləcəyi ehtimal olunan bütün ölkələrin hökumətlərinə onu qəbul etməmələri üçün xəbərdarlıq etdi. Eyni zamanda İnterpol da müvafiq qaydada hərəkət etdi. ABŞ hökuməti də bütün səfirliklərinə ayıq olmaları, A.Öcalanın saxta pasportla hər hansı ölkəyə getməsinə imkan yaratmamağı tapşırdı[7].

Ankara ilə Moskva arasında gərginlik getdikcə artırdı. Oktyabrın 28-də Türkiyə hökuməti Rusiyaya Öcalanın verilməsini tələb edən nota təqdim etdi[8]. Ancaq rusların mövqeyində dəyişiklik olmadı. Nota verildikdən bir

---

[1] O.Pirim, S.Örtülü. Göst. əsəri, s.81-82.

[2] Hakantürk. Asrın operasyonu. Göst. əsəri, s.14-15; Özkan Tuncay. Göst. əsəri. əlavə 3. s.231.

[3] Hakantürk. Asrın operasyonu. «Paket Konyada kapatıdı». Atlantik yayınları, I baskı, istanbul. 1999, s.14-15; Özkan Tuncay. Göst. əsəri. əlavə 3, s.72-73.

[4] Hakantürk. Göst ərsəri, s.15.

[5] O. Pirim, S.Örtülü. Göst. əsəri, s.84.

[6] Yenə orada.

[7] Yenə orada.

[8] Yenə orada.

gün sonra Rusiya Federal Təhlükəsizlik Xidmətindən (FSB) verilən açıqlamada FSB-nin Öcalanın Rusiyaya gəlib-gəlmədiyinə dair bilgisi olmadığı, bu məsələ ilə bağlı araşdırmalar apardığı bildirilmişdi[1].

Türkiyə Xarici İşlər Nazirliyi Rusiya hökumətinə A.Öcalanın Türkiyə iradəsini tələb edən yeni bir nota təqdim etdi. A.Öcalanın cinayətlərinin sadalandığı dosye də notaya əlavə olunmuşdu. Lakin Rusiya rəsmiləri əvvəlki tək A.Öcalanın Rusiyada olduğunu inkar etməkdə idilər[2].

Eyni zamanda PKK-ya qarşı mübarizədə Suriya ilə əməkdaşlığın dərinləşməsi üçün tədbirlər görülürdü. Dəməşq şəhərində iki ölkənin təhlükəsizlik xidməti nümayəndələrinin ikinci görüşündə «qırmızı telefon xətti» yaratmaq qərarı qəbul olundu. Görüşdə bildirilirdi ki, Suriya təhlükəsizlik qüvvələri bir neçə PKK-çını tutmuşlar[3]. MİT-ə məlum oldu ki, A.Öcalan qaçdıqdan sonra partiyada liderlik üstündə A.Öcalanın qardaşı Osman Öcalanın və Şimali İraqdan Türkiyədəki terror hərəkətlərinə başçılıq və iştirak edən Murad Karayılanın da daxil olduğu 7 nəfər arasında mübarizə başlamışdır. M.Karayılan O.Öcalan və Xəlil Ataçla birlikdə Suriyadan qaçan 400 PKK-çını Şimali İraqda yerləşdirmişdilər. Qardaşının yerini tutmaq istəyən O.Öcalanla birlikdə PKK-nın silahlı qanadı ERNK-nın öncülləri Cəmil Bayık və Xəlil Ataç Karayılanın liderliyinə qarşı çıxırdılar[4].

Rusiya hökuməti -terrorçulara sığınacaq vermirik- söyləsə də Rusiya Dövlət Duması noyabrın 4-də 1 səsə qarşı 298 səslə A.Öcalana sığınacaq verilməsi haqqında qərar qəbul etdi. Qərarda deyilirdi ki, Türkiyə beynəlxalq ictimaiyyətin kürd problemi ilə bağlı dinc nizamlama çağırışlarını qulaqardına vurur, PKK-nı və A.Öcalanı bölücülük və terrorizmdə ittiham etmək olmaz[5].

Ankara Dumanın bu qərarına çox sərt reaksiya verdi. Rusiyanın Türkiyədəki səfiri A.Lebedev Türkiyə Xarici İşlər Nazirliyinə çağırılıb, ondan bu qərarla bağlı izahat tələb olundu[6].

Türkiyə hökumətinin qəti və ardıcıl mövqeyi öz nəticəsini verdi. A.Öcalan Rusiyada da özünə sığınacaq tapa bilməyib, İtaliyaya qaçdı. İtaliyadan türk interpoluna gələn bir məlumatda A.Öcalanın Abdulla Sarıqurt adı altında İtali-yaya uçduğu və Roma yaxınlığındakı bir hava limanında yaxalandığı və Regiona Gklia həbsxanasına yerləşdirildiyi bildirilirdi[7].

Öcalan Yenidənqurma partiyasından olan millət vəkili Montavaninin dəvəti ilə Rus hava yollarına aid bir reys təyyarəsi ilə Romaya uçmuşdu. Polis onu saxta pasportla hərəkət etdiyinə görə həbs etmişdi[8].

Bu məlumatı alan kimi baş nazir M.Yılmaz İtaliyanın Türkiyədəki səfiri Maksimilano Bandini çağırıb Türkiyə və İtaliyanın NATO üzrə müttəfiqlər olduğunu xatırladaraq A.Öcalanın Türikiyəyə verilməsinin həm beynəl-

---

[1] O. Pirim, S.Örtülü. Göst. əsəri, s.84.
[2] Hakantürk. Göst. əsəri, s. 17-19.
[3] Yenə orada, s.19-20.
[4] Yenə orada, s.21-22.
[5] Yenə orada.
[6] Yenə orada, s.23-24.
[7] O.Pirim. S.Örtülü. Göst. əsəri, s.88.
[8] Özkan Tuncay. Göst. əsəri. s.187.

xalq hüquqa, həm də müttəfiqliyə görə zəruri olduğunu bildirdi[1]. Lakin İtaliya baş naziri Maksimo D.Alema Türkiyədə edam cəzası ləğv olunmayınca A.Öcalanın Türkiyəyə verilməsinin mümkünsüz olduğunu bəyan etdi. Belə olan təqdirdə Türkiyə İtaliya ilə iqtisadi əlaqələrini kəsmək istiqamətində kampaniyaya başladı[2].

Bu zaman isə PKK-çılar Öcalana dəstək vermək üçün çoxsaylı qruplarla Romaya axışırdılar. Bir-birinin ardınca küçə nümayişləri təşkil edən bu qrupların etdikləri özbaşınalıqlara italyan polisi göz yumurdu. Bir nümayiş zamanı Öcalanla bağlı hadisələri izləmək üçün Romaya gedən türk jurnalistlərinə basqın edildi. PKK-çılar daş və ağaclarla jurnalistləri döyərkən polislər seyriçi mövqe tutmuşdular[3].

Orta Şərqdə strateji məqsədləri olmayan İtaliyaya A.Öcalan kimi beynəlxalq terrorçunu əldə saxlamağın rasional bir xeyri yox idi. Buna görə də, Apo Romaya gəldiyi ilk gündən etibarən bir yandan bu məqsədə Avropa Birliyinin dəstəyini arayarkən, digər yandan da Orta Şərqdə ekspansiya fürsəti axtaran Almaniyaya Apo-nu qəbul etməyi təklifi edilmişdi. Berlin isə öz strateji hədəflərini gerçəkləşdirərkən əlini daşın altına qoymamaq taktikası yeridirdi. Bir müddət əvvəl alman təhlükəsizlik xidməti terror əməllərini törətməməsi şərtilə PKK-ya Almaniyada fəaliyyət göstərməyə icazə vermişdi[4]. Eyni zamanda alman hökuməti Apo-nu müvəqqəti olsa da, Almaniyaya gətirib həbs etməyin PKK-nın zorakılığına və Almaniyadakı PKK tərəfdarları ilə türklər arasında münaqişəyə səbəb ola biləcəyindən qorxurdu. Buna görə də Apo-nu istəməkdən qorxdu. Türkiyənin sərt təpkisi və ABŞ-ın Apo üzərində beynəlxalq məhkəmə fikrinə dəstək verməməsi də İtaliya və Almaniyaya az təsir göstərməmişdi[5]. Öcalanı Almaniyaya ötürə bilməsə də İtaliya hökuməti onu Türkiyəyə də vermək istəmirdi.

İtaliyanın bu cür yanlış mövqeyi Ankarada çox sərt qarşılandı. Milli Müdafiə Naziri İsmət Sezgin və Xarici İşlər Naziri İsmayıl Cem noyabrın 15-də bəyanat verərək bildirdilər ki, əgər İtaliya Öcalanı verməzsə, ona qarşı iqtisadi embarqo qoyula bilər. Öcalan öz vəkili Luici Saraceni vasitəsilə İtaliyadan siyasi sığınacaq istədi. İtaliya daxili İşlər nazirliyi sığınacaq istəyini nəzərdən keçirdiyi bir zamanda baş nazir Maksimo D.Alema verdiyi bir açıqlamada riyakarcasına Öcalanın bu istəyinin qəbul edilə biləcəyini inkar edirdi. D.Alema Öcalanın Türkiyəyə verilməməsini bu ölkədə edam cəzasının mövcudluğu ilə əsaslandırırdı. S.Dəmirəl isə edam cəzasının qaldırılmayacağını bildirərək Öcalanın verilməsini tələb etdi[6].

Sezginin və Gemin Romada ilk siqnal verməsindən sonra Türkiyədə italyan mallarına qarşı baykot kampaniyası başladı. İtalyan iş dairələri çox narahat olmağa başladılar. Onlar D.Alema və digər rəsmilərə qarşı öz etiraz

---

[1] O.Pirim. S.Örtülü. Göst. əsəri, s.88.
[2] Hakantürk, Göst. əsəri, s.26.
[3] O.Pirim. S.Örtülü. Göst. əsəri, s.97.
[4] Ümit Özdağ. Göst. əsəri, s.211.
[5] Yenə orada.
[6] Yenə orada.

səslərini qaldırmağa başlamışdılar[1].

Türkiyədə başlayan etiraz nümayişləri də getdikcə güclənirdi. Gözü yaşlı şəhid ailələri Kavaklıdərədəki İtaliya səfirliyi önündə sübh tezdən axşama qədər D.Alema əleyhinə şüarlarla çıxış edirdilər. Nümayişlər bütün ölkəyə yayılırdı[2].

Noyabrın 18-də Avropa Parlamenti Öcalanın İtaliyada sığınacaq alması barədə qətnaməni rədd etdi[3].

D.Alema və Almaniya kansleri Herhard Şroder Öcalanın beynəlxalq məhkəmədə mühakimə olunmasını təklif etdilər. Lakin Türikiyə hökuməti bu təklifə qəti etiraz etdi[4].

İtaliya üçün artıq bir yol qalmışdı: Öcalanı tezliklə ölkədən çıxarmaq. D.Alema dövlət televiziyasına verdiyi müsahibəsində demişdi: «Türkiyənin beynəlxalq məhkəmə fikrinə qarşı olduğunu nəzərə alsaq ancaq bir alternativ yol qalır. Əgər Öcalanı mühakimə etmək mümkün deyilsə, o, ölkəmizdə qanunsuz yolla gələn AB xarici bir vətəndaş olacaq, dolayısıyla ya siyasi sığınacaq vardır, ya da uzaqlaşdırılmalıdır»[5]. Çarəsiz vəziyyətdə qalan İtaliya hökuməti A.Öcalanı Liviyaya, yaxud Sudana yollamaq istədi, lakin ABŞ buna etiraz etdi.

1999-cu il yanvarın 16-da İtaliyanın Xüsusi xəbər agentliyi ADH KROSS Öcalanın Roma yaxınlığındakı İnfornetto məhəlləsində qaldığı evi tərk etdiyini bildirdi. İtaliya yerli saatla $20^{00}$-da Öcalanın ölkəni tərk etdiyini bütün dünyaya elan etdi[6]. Öcalanın 65 gün davam edən Roma macarası sona çatdı.

Öcalan İtaliyanı tərk etdikdən sonra getdiyi ölkə naməlum qalırdı. Quldurbaşının gedə biləcəyi ölkələr sırasında adı çəkilən Belarus və Ukrayna, Öcalanı qəbul etməyəcəklərini bəyan etmişdilər. Baltikyanı ölkələr də məsələ ilə bağlı Türkiyəyə tam təminat vermişdilər. Şübhələr Rusiya üzərinə düşürdü. Ancaq Rusiya Təhlükəsizlik Xidməti (FSB) Öcalanın Rusiyaya girib-girmədiyi haqqında sualları cavabsız qoyurdu. Əslində isə Öcalan İtaliyadan ayrıldıqdan sonra Rusiyaya dönmüşdü. Əsl məqsədi Hollandiyaya gedə bilmək idi. Öcalan Hollandiyada Laheydəki Beynəlxalq Hərbi Cinayətlər Məhkəməsinə təslim olmaq fikrində idi[7].

Türk gizli xidmət əməkdaşları Öcalanın Minskdən keçdiyini, Moskva hava limanında bir müddət gözlədiyini öyrənmişdi, ancaq harada olduğu haqqında qəti bir məlumat əldə edə bilməmişdi[8].

Türkiyə Xarici İşlər Nazirliyi Öcalanın yerini təsbit etmək üçün ABŞ rəsmiləri ilə fikir mübadiləsi edirdi. ABŞ xəfiyyələri də Öcalanın dalınca düşmüşdü. Öcalan və yanındakılar yanvarın 31-də yenidən Afinaya uçdular.

---

[1] Ümit Özdağ. Göst. əsəri, s. 211.
[2] Yenə orada, s.92.
[3] O.Pirim, S.Örtülü, Göst. əsəri, s.92 .
[4] O.Pirim, S.Örtülü, Göst. əsəri, s.93; Hakantürk. Göst. əsəri, s.29.
[5] O.Pirim, S.Örtülü, Göst. əsəri, s.92.
[6] Yenə orada, s.94.
[7] Yenə orada, s.95.
[8] Yenə orada.

Panqalos Öcalanı səmimi qarşıladı. Sonra Öcalan Kos adasına yollandı[1]. Öcalan yaxalandıqdan sonra verdiyi ifadədə bildirmişdi: «29 yanvar 1999-cu il tarixdə Rusiyanı tərk etdik. Yunanıstana qəbul ediləcəyimi söylədilər. Yunanıstana gəldik, ancaq səlahiyyətli və məsul durumda olan Dmitris məni görüncə yerində titrədi, dərhal göndəriləcəyimi söylədi və mənim Minsk üzərindən Hollandiyaya göndəriləcəyimi bildirdi, öz təyyarələri ilə məni Minsk hava limanına gətirib buraxdılar. Bu hava limanında dondurucu soyuqda 4 saat gözlədim. Bu duruma Avropa ölkələri qərar almış, məni Hollandiyaya götürəcəklərini söylədikləri təyyarə gəlmədi. Beləcə məni ortada buraxdılar. Bu gözləmə zamanı məni israrla təyyarədən endirmək istədilər. Məni təyyarədən endirərək bu hava limanında buraxmaq və böyük bir təhlükə qarşısında qalmağımı istədilər. Mən də təkidlə təyyarədən enmək istəmədim. Bu olay 31 yanvardan 1 fevrala keçən gecə cərəyan etdi. Bu sırada bütün Avropa hava limanlarının bağlandığını duydum. Sonda məcburən təkrar Yunanıstana dönmək gərəyi yarandı. Yunanıstanda Dmitris tərəfindən çox daha pis bir şəkildə qarşılandım.»[2].

Avropanın heç bir ölkəsi risq edib A.Öcalanı qəbul etmək istəmədiyindən Yunan hökuməti onu Keniyaya yola saldı. Fevralın 2-də A.Öcalan İbrahim adlı PKK yaraqlısı ilə həmin kiçik təyyarədə Keniyaya uçmuşdur[3].

Öcalanın bu «səyahətində» yunan gizli servisinin əməkdaşı mayor Savvas Kalenderidis müşayiət etmişdir. O, Öcalanı 1999-cü il fevralın 2-də Keniyaya qədər aparmışdı. Kalenderidisin 26 fevral 1999-cu il və 3 mart 1999-cu il tarixlərində Afina Hüquq məhkəməsinə verdiyi ifadə bir çox mətləblərdən xəbər verir. Kalenderidis demişdi ki, Daxili İşlər Nazirliyi və Kamu düzən nazirliyi tərəfindən ona A.Öcalanın qanunsuz şəkildə Yunanıstana gətirilməsinə icazə verilmişdi[4]. Kalenderidisin ifadəsinə görə, Öcalan Keniyaya Cənubi Kipr Respublikasının vətəndaşı Lazaros Mavrosun adına yazılmış pasportla göndərilmişdi[5].

A.Öcalanı Yunanıstanın Keniyadakı səfiri Kostulasın evinə apardılar. Bildirdilər ki, pasport düzəldib onu CAR-a aparacaqlar. Ancaq günlər ötürdü, pasport yox idi. Öcalana başqa evə köçməyi təklif etdilər. Öcalan imtina etdi[6].

Yunanıstanın Keniyadakı səfirinin dediyinə görə, əvvəlcə o, səfirliyə göndərilən adamın A.Öcalan olduğunu bilmirdi. Səfirə demişdilər ki, gələnlər nüfuzlu biznesmenlərdən ibarət bir qrupdur. Ancaq səfirliyə çatan kimi müsafirlərinin kim olduğunu səfir anlamışdır. Səfirin dediyinə görə 1999-cu il fevralın 5-də Xarici işlər naziri Pangolosun köməkçisi səfirliyə bildirmişdi ki, nazir əsəbiləşərək bildirmişdi ki, bizim ona yardım göstərməyimizi burnumuzdan gətirməsin, «Səfirliyi dərhal tərk etsin, haraya gedirsə getsin,

---

[1] O.Pirim, S.Örtülü, Göst. əsəri, s.96.

[2] Abdullah Öcalanın DGM savcıları tarafından İmralı Cezaevinde alınmış ilk tfadeleri. Özkan Tuncay. Göst. əsəri, əlavə 3, s.232-233; S.Ç. PKK b.A.Ö. ilk if-si. APO, PKK ve saklanan gerçekler» s.31.

[3] O.Pirim, S.Örtülü. Göst. əsəri, s.96.

[4] Özkan Tuncay. Göst. əsəri, s.79-80.

[5] Yenə orada, s.87.

[6] Özkan Tuncay. Göst. əsəri, s.86.

istəyir lap səhraya getsin». Ancaq Öcalan təminat istəyərək səfirliyi tərk etməmişdi[1].

Səfir biznesmen Aristidi ilə görüşüb Aponu Seyşel adalarına göndərmək məsələsini müzakirə etdi[2]. Fevralın 2-də Keniya Xarici İşlər Nazirliyi nota verərək Öcalanın dərhal səfirlikdən cıxarılmasını tələb etdi. Elə bu zaman Aristidi Seyşelin Aponu qəbul etməyə hazır olduğunu bildirdi. Lakin Öcalan normal pasport olmadan elçiliyi tərk etməyəcəyini bildirdi[3].

Yunan səfiri Nayrobidəki bir pravoslav kilsəsinin mitropoliti ilə görüşüb Öcalana kilsədə sığınacaq verməyi təklif etmiş, mitropolit bu təkliflə razılaşmışdı. Ancaq Apo bu variantla razılaşmamışdı. Pangalosun köməkçisi Rarayuannu isə tez-tez telefonla zəng edərək Öcalanın dərhal səfirlikdən çıxarılmasını tələb edirdi. Öcalan isə yerindən qımıldanmaq istəmirdi ki, istəmirdi. Onun qadın mühafizəçisi şərti adı Dilan olan Şəmsə Kılıc və digər iki qadın isə Öcalanı çıxarsanız özümüzü yandırarıq deyə hədələdilər. Sonra Şəmsə Kılıc silahını çəkib, «vurarım!» dedi. Daha sonra isə bir otağa girib, qapısını arxadan bağladı və 15 milyon dollar ödənib təyyarə kirayə edilməsini, təhlükəsizlik üçün yazılı təminat verilməsini və yunan səfirinin Seyşelə qədər Öcalanı müşaiyət etməsini tələb etdi[4].

Fevralın 11-dən sonra Öcalanın yunan səfirliyindən çıxarılması üçün təzyiqlər artdı. Bir yandan da yunan gizli xidməti Öcalanın Seyşelə getməsinə icazə almaq istəyirdi. Müəyyən pul müqabilində Öcalanın ayrı ad altında Seyşelə qəbul edilməsinə icazə verilmişdi. Lakin Yunan hökuməti lazımi məbləği verməkdən imtina etdi. Arustidou Avropa kürd təşkilatlarından 1 milyon dollar məbləğində pul toplamışdı[5].

ABŞ da Yunanıstana təzyiqini artırmışdı. 1999-cu il fevralın 4-də ABŞ MKİ-nin Ankara təmsilçisi Türkiyə MİT-in rəisi Şenkal Atasağunun yanına gəlib A.Öcalanı şərikli bir əməliyyat vasitəsilə tutub Türkiyəyə gətirməyi təklif etdi. Ancaq amerikan tərəfi Öcalanın diri-diri gətirilib məhkəmə önünə çıxarılmasını istəyirdi. Məsələ dərhal baş nazir B.Ecevit və prezident S.Dəmirəllə razılaşdırıldı. MKİ və MT arasında lazımi protokol imzalandı və ortaq əməliyyat planı hazırlandı[6].

Bəs ABŞ Türkiyəyə bu əvəzolunmaz xidməti göstərib, A.Öcalan kartını ona verməklə hansı məqsəd güdürdü? Bu, bir yandan ABŞ-ın yeni dünya düzümündə böyük rol ayırdığı Türkiyəni özünə daha da yaxınlaşdırmaq məqsədindən irəli gəlirdi. Digər yandan, ABŞ 1 saylı düşməni Hüsame ben Laden və Səddam Hyseynə qarşı mübarizədə MİT-in xidmətlərindən yararlanmaq istəyirdi[7].

ABŞ və Türkiyə xüsusi xidmət orqanlarının birgə hazırladığı plana əsasən 7 nəfər MİT əməkdaşından ibarət bir qrup təşkil olundu. Əməliyyatla

[1] Hakantürk. Göst. əsəri, s.159.
[2] Yenə orada, s.156-157.
[3] Yenə orada, s.157.
[4] Yenə orada.
[5] Özkan Tuncay. Göst. əsəri, s.92.
[6] Yenə orada, s.13-14.
[7] Yenə orada, s.15-17.

bağlı Keniyaya uçurmaq üçün uzaq mənzillərə uça bilən, xüsusi təyyarə lazım idi. İş adamı Cavid Çağlardan belə bir təyyarə 200 min dollara kirayəyə götürüldü[1]. Fevralın 10-da Uqandaya uçan təyyarə düz fevralın 14-də axşama kimi burada gözlədi. Nəhayət, 14 fevral, axşamçağı təyyarənin Keniyanın paytaxtı Nayrobiya uçması barədə əmr verildi. Təyyarə Nayrobi hava limanında yerə endi və əməliyyat qrupu hazır vəziyyət aldı.

Fevralın 15-də günortaüstü Yunanıstan səfirini Keniya Xarici İşlər Nazirliyinə çağırdılar. Keniyalılar bildirdilər ki, onlar ilk gündən Öcalanın səfirlikdə saxlanmasından xəbərdardırlar. Bu problemdən özlərini də qurtarmaq üçün Öcalanın başqa bir ölkəyə ötürülməsini gözləyirlərmiş. Keniyalılar əmin etdilər ki, bu barədə heç bir xarici servisə məlumat verməmişlər. Keniyalılar səfirdən tələb etdilər ki, vaxt uzatmadan saat $17^{00}$-da səfirliyi boşaldılsın. Hətta təyyarə gətirilməməsini istədilər, təyyarənin Keniya hökuməti tərəfindən ayrılacağını bildirdilər[2].

Yunanlar saat $16^{20}$-də A.Öcalana vəziyyəti anlatdılar. Elə bu zaman $17^{20}$-də Keniya Xarici işlər nazirinin bir məmuru səfirliyə gəldi. O, Öcalanla danışıb ona heyran olduğunu bildirdi. Öcalan, əvvəlcə Seyşel adalarından təminat gəlmədiyi üçün səfirliyi tərk etməyə razılıq vermədi. Ancaq sonra dirənişin daha pis nəticə verəcəyindən qorxub razılaşdı[3].

Səfirliyin qarşısında keniyalıların beş avtomobili durmuşdu. Keniyalı, yunan səfirinə öz avtomobilindən istifadə etməyə icazə vermədi. Hər avtomobildə iki və ya üç zənci oturmuşdu. Öcalan səfirlikdən çıxdıqdan sonra onu ortada dayanan avtomobilə ötürdülər. Səfir də onun yanına oturmaq istədi. Lakin keniyalılar güvənliyi bəhanə edib buna imkan vermədilər. Bu bəhanə ilə Öcalının qadın terrorçularının da yanında oturmasına icazə verilmədi[4].

Yolda Öcalanı aparan avtomobil digər avtomobillərdən ayrıldı. Hava limanına çatdıqdan sonra Öcalanı aparan avtomobilin «Polise Station» yazılmış bir qapıdan içəri girdiyini söylədilər. Hava limanına çatandan sonra keniyalılar yavaş-yavaş uzaqlaşmağa başladılar. Ortada yalnız yunan səfiri, Kalenderidis və Öcalanı müşayiət edən dörd nəfər qalmışdı[5].

Öcalanı aparan avtomobil hava limanının uçuş bölməsinə daxil oldu. Heç nədən şübhələnməyən Öcalan keniyalı məmurlarla birlikdə təyyarəyə doğru yönəldi. Onun içəriyə daxil olması ilə MİT əməkdaşlarının üstünə atılması bir oldu. Öcalan bir anda, bir əşya kimi xüsusi bir lent və kəndirlə sarındı. Əlləri, ağzı və gözləri bağlandı[6].

Təyyarə havaya qalxdıqdan sonra Öcalan bir kresloya oturduldu. Əvvəlcə ağzındakı lenti açdılar. Sonra gözlərindəki sarğını açdılar. Öcalan danışa bilmirdi, tutulmuşdu. Sarğıları açınca əməliyyat heyətinin üzvü dedi:

---

[1] Özkan Tuncay. Göst. əsəri, s.152-153.
[2] Özkan Tuncay. Göst. əsəri, s.96; Hakantürk. Göst. əsəri, s.158-159.
[3] Özkan Tuncay. Göst. əsəri, s.96-97.
[4] Özkan Tuncay. Göst. əsəri, s.98; Hakantürk. Göstərilən əsəri, s.159.
[5] Özkan Tuncay. Göst. əsəri, s.98-99.
[6] Hakantürk. Göst. əsəri, s.157-158.

«Abdulla Öcalan, məmləkətə xoş gəldin»[1].

Keniyadan qalxan təyyarə heç yerdə enmədən birbaşa Türkiyəyə uçdu. Əməliyyata Şenkal Atasağun bilavasitə özü rəhbərlik edirdi. Fevralın 15-dən 16-a keçən gecə saat $02^{00}$-da Öcalanı gətirən təyyarə Türkiyə hava sahəsinə daxil oldu. Ş.Atasağun baş nazirə, baş qərargah rəisinə və prezidentə zəng edərək «paket gəldi» dedi. Təyyarə Bandırma hərbi təyyarə meydanına endirilməli idi. Lakin duman buna imkan vermədi. Bu səbəblə təyyarə İstanbula yönəldi. Saat $03^{30}$-da təyyarə İstanbulda yerə endi.

Qeyd edək ki, Nayrobidə əməliyyat keçirən zaman amerikan gizli xidmət əməkdaşları bilavasitə işə qarışmasalar da, əməliyyatı kənardan seyr edirdilər. Onlar Öcalana xətər toxunulmayacağına əmin olmaq istəyirdilər.

A.Öcalanı gətirən xüsusi təyyarə 7 saatlıq uçuşdan sonra 16 fevral 1999-cu il saat $3^{00}$-da artıq Türkiyəyə çatdı. Təyyarə $03^{49}$-da Bandırma təyyarə limanına endi. Əvvəlcə Zəfər Divizya qışlasına, oradan isə İmralı həbsxanasına aparıldı. Fevralın 16-da sübh tezdən baş nazir Bülənd Ecevit - Apo artıq Türkiyədədir- deyə ölkəyə müraciət edərək rahat nəfəs aldı[2].

Beləliklə də, deyilənləri yekunlaşdırıb belə bir nəticə çıxarmaq olar ki, Türkiyə dövləti ilk vaxtlar geniş vüsət almış PKK terrorizmi qarşısında özünü itirmişdir. Lakin sonra bu sahədə müəyyən təcrübə qazanılmış və qüvvələr səfərbər edilərək bu terrorçu təşkilata sarsıdıcı zərbələr endirilmişdir. PKK terroruna qarşı mübarizədə ən böyük uğur onun lideri A.Öcalanın həbs edilməsi olmuşdur. Bu gün PKK bel sütunu qırılmış durumdadır və geniş miqyaslı terror əməlləri keçirmək iqtidarında deyil. Eyni zamanda bunu da unutmaq olmaz ki, ilanın başı əzilməmişdir və o fürsət düşən kimi dirçələ, yenidən öz zəhərini ölkəyə yeridə bilər. Son vaxtlar PKK-çıların törətdikləri terror aksiyaları da bu fikri sübut edir.

## БОРЬБА ТУРЕЦКОЙ РЕСПУБЛИКИ ПРОТИВ ТЕРРОРИСТИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ ПКК, АРЕСТ А.ОДЖАЛАНА

С.Т.ГАДЖИЕВ

### АННОТАЦИЯ

В Турции большое внимание уделяется созданию юридической базы для борьбы против террора. В Турции для борьбы с терроризмом создается юридическая база. Как в конституции страны, так и в специальных законах (закон о борьбе с террором, закон о радио- и телепередачах) имеются статьи, направленные на борьбу с терроризмом. В 1997 году в Восточной Анатолии было объявлено чрезвычайное положение. Для борьбы с террором против курдских сепаратистов используются все ресурсы страны. В операциях против террористов участвуют мирные граждане, полиция и вооруженные силы. Самым большим успехом турецкого правительства против курдских сепаратистов был арест главы ПКК А.Оджалана.

[1] Özkan Tuncay. Göst. əsəri, s.157-158.
[2] Hakantürk, Göst. əsəri, s.37; Özkan Tuncay. Göst. əsəri, s.159-162.